**UOT 008 (091)**

**Sahib Vəliyev**
**Tarix üzrə fəlsəfə doktoru, baş müəllim**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr.39**
**E-mail: s_valiyev@gmail.com**

# AZƏRBAYCAN ARXEOLOGİYASI – MADDİ MƏDƏNİYYƏTİMİZİN ƏSAS MƏNBƏYİ KİMİ

**Xülasə:** Qədim dövrdən bu günə kimi gəlib çıxmış arxeoloji abidələr, maddi mədəniyyət sərvətləri, tarixi-memarlıq onu deməyə əsas verir ki, Azərbaycan xalqı mədəniyyət sahəsində ən irəlidə gedən xalqlardan biri olmuşdur. Azərbaycançılıq ideologiyasının elmi əsaslarla hazırlanmasını arxeologiya, tarix müstəqilliyimizin, mənəviyyatımızın və mədəniyyətimizin inkişafı kimi elm sahələri bu gün həyatda öz əksini göstərməkdədir.

**Açar sözlər:** mənəviyyat, mədəniyyət, milli-mənəvi dəyərlər, ideologiya, tarix, arxeologiya.

Tarixi qaynaqları özündə əks edtirən maddi mədəniyyət nümunələri haqqında fikirlər söyləməyə çalşarkən cəmiyyətin içərisindəki zamanın yüksəliş, durğunluq və tənəzzül çağlarını da aparılmış arxeoloji tədqiqatlarda, axtarışlarda və qazıntılar zamanı əldə olunan madəniyyət qalıqlarında və bu günə qədər gəlib bizə çatmış qədim yaşayış yerləri ilə bərabər qədim tarixi özündə əks etdirən abidələrdə də görmək mümkündür.

Onu da qeyd etməyimiz yerinə düşərdi ki, aparılmış arxeoloyi tədqiqatları və nəzıntıları nəzərə alıb bu günkü dövrdə cəmiyyəti durğunluqdan çıxarmaq, onun yüksəlişini təmin etmək, tərəqqiyə nail olmaq, bölgələrdəki maddi və mənəvi mədəniyyətdəki fərqləri aradan qaldırmağa, ümumazərbaycan mədəniyyətinin formalaşmasına imkan yaradan amilləri prioritet məsələ kimi gündəmdə saxlamalıyıq.

Cəmiyyətin içərisində formalaşan dovlətlərin yaranmasını və möhkəmlənməsini, təsərüffat həyatını, sənətkarlığın inkişaf mərhələlərini, ticarət əlaqələrinin genişlənməsini də böyük tərəqqi dövrü kimi qiymətləndirdiyimizi və bu istiqamətlərdə atılan addımları da arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələrində də görmək mümkündür.

Hər bir xalqın milli sərvəti olan maddi-mədəniyyət abidələri eyni zamanda həmin xalqın tarixini və mədəniyyətini öyrənmək üçün əvəzsiz mənbədir. Yadelli işğalçıların ardı-arası kəsilməyən hücumları, ölkədə baş vermiş iqtisadi, siyasi və dini-ideoloji dəyişikliklər əticəsində Azərbaycanın tarix və mədəniyyət abidələri ciddi dağıntılara əruz qalmışdır. Bütün bunlara baxmayaraq, torpaq öz qoynunda tarix üçün son dərəcə qiymətli olan maddi abidələr saxlamışdır. Dağıntıya məruz qalmış tarix və mədəniyyət abidələrinin tədqiqi arxeoloqların qarşısında duran əsas vəzifələrdən biridir.(3, s.17-18)

Milli-mənəvi dəyərlər insanların öz xalqı üçün daha vacib və xarakterikhesab etdiyi və tarixən yaratsığı maddi və mənəvi mədəniyyətində öz əksini tapır. Müasir dövrdə milli-mənəvi dəyərlərin, mədəni irsin qorunması müxtəlif səviyələrdə müzakirə olunan aktual problümlərdən biridir. Bəs, arxeoloji irs xalqın milli-mənəvi dəyərləri sistemində hansı yeri tutur? Onların qorunub saxlanılmasının müasir dövrdə insanlar, xüsusilə də dövlət üçün əhəmiyyəti nədən ibarətdir? (19,s.32)

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda arxeoloji tədqiqatlara, axtarışlara və qazıntılara daha çox yer verildi. Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində, onun daha da təkmilləşdirilməsində atılan addımların sayı günü-gündən çoxalmağa başlanıldı.

Tarixçilərimiz və milli arxeoloqlarımız qədim tarixə malik olan qədim Azərbaycan ərazisindəki əldə olunan maddi-mədəniyyət nümunələrini olduğu kimi irəli sürür və milli-mənəvi dəyərləri bu ideologiyanın ən mühüm istiqamətlərindən və tərkib hissələrindən biri kimi qiymətləndirirlər.

Bu yerdə onu da qeyd edim ki, əldə olunan arxeoloji arxeofaktlar onu deməyə əsas verir ki, milli-mənəvi dəyərlərin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə hər tərəfli müsbət şərait yaradılır.

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsində əldə olunan nəticələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi təsəvvür və görüşləri, adət-ənənələri ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqına da tale belə bir zənginlik qismət etmişdir.

Hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəslə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən keşməkeşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu Öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".(32,s.34-39)

Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasında arxeoloji irsin qorunmasının müasir dövrün vacib problemərindən biri olduğu göstərilir. “Arxeoloji irsin qorunması üçün təkcə bilavasitə maraqlı dövlətlərin deyil, həm də bütün Avropa ölkələrinin məsuliyyət daşımalı olduğunu, həmçinin məqsədin arxeoloji irsə ziyan vurulması riskini azaltmaq və ekspertlər mübadiləsinin həvəsləndirilməsi və təcrübənin müqayisəsi yolu ilə onun qorunmasına kömək göstərmək olduğunu vurğulayır. Bu

Konvensiyanın məqsədi arxeoloji irsin Avropa kollektiv yaddaşının mənbəyi,tarixi və elmi araşdırmalar aləti kimi qorunmasını təmin etməkdən ibarətdir.” (2,s. 167-168)

İnsanların yaratdığı hər hansı bir abidə və ya əşya müəyyən dövrdən sonra onun milli-mənəvi dəyərlər disteminə daxil edilir. Burada insanların öz tarixinə, mədəniyyətinə münasibəti mühüm rol oynayır. İnsanların öz mədəniyyətinə mənəvi dəyər nöqteyi-nəzərindən yanaşmaları zamanla əlaqəlidir. Zaman keçdikcə, insanların yaratdıqları hər bir şey onun üçün dəyərli olur,onun tarixi haqqında informasiyyanın daşıyıcısına çevrilir. Bu baxımdan da, həmin abidələr, əşyalar onun milli-mənəvi dəyərlərisisteminə daxil edilir. Milli-mənəvi dəyərlər, eləcə də maddi mədəniyyətdə təcəssüm olunur. Bu baxımdan irəli gələrək demək olar ki, arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələri insanların milli-mənəvi dəyərlər sisteminə daxildir. (65, s.14-15)

Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanununda (10 aprel 1998-ci il) arxeoloji abidələr haqqında fikir söylənilir. Məsələn, arxeoloji abidələr insanın fəaliyyəti ilə əlaqədar yer altında olan maddi mədəniyyət nümunələri, o cümlədən ibtidai insan düşərgələri və yaşayış məskənləri, qədim qəbristanlıqlar, müdafiə sistemləri və istehkamlar, ziyarətgahlar, hər cür qədim əşyalar, dini və xatirə abidələri, qaya və daşüstü təsvirlər və yazılar, qədim mədən istismar izləri, əmək alətləri, istehsalat kürələri, qədim yollar, körpü qalıqları, arxlar, ovdan və kəhrizlər, su kəmərləri, kürəbəndlər və s. məlum olmuşdur.(51, s.111-112)

Onu da qeyd edim ki, həmin qanuna əsasən, arxeoloji abidələr əksər hallarda daşınmaz abidələr olmaqla olduğu və inşa edildiyi yerlərdə qorunur və mühafizə olunur.

Bəşəriyyətin tarixi ilə tanışlıq onun yaratdığı bütün mədəniyyətlərlə tanışlığı tələb edir. Bu tezistən irəli gələrək qeyd etmək lazımdır ki, hər bir xalqın mədəniyyəti bəşəri mədəniyyətin tərkib hissəsidir. Beləliklə, arxeoloji irsin qorunub saxlanılması, maddi mədəniyyət qalıqlarının öyrənilməsi dövlətin əsas vəzifələrindən biri olmaqla yanaşı, beynəlxalq ictimaiyyətin də maraq dairəsində olmalıdır.

Müasir dövrdə mədəni irsin qorunması mühüm sosial məsələdir. Bunu həyata keçirmək üçün elmi araşdırmaların aparılması və dövlətin bu sahədə lazımi tədbirlər həyata keçirməsi vacibdir. Dövlətin həyata keçirdiyi tədbirlərə ilk növbədə mədəni irsin qorunması haqqında qanunlar və əsasən də, müxtəlif vasitələrlə hər bir insanın tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşması, ona qayğı göstərməsi, tarix və mədəniyyət abidələrini qoruması üçün təbliğat işləri aparılmalıdır. Burada muzeylərin, qoruqların, təhsil müəssisələrinin, mətbuatın üzərinə böyük öhtəliklər qoyulmalıdır.

Məlumdur ki, Azərbaycan ərazisində aparılmış arxeroloji tədqiqatlar nəticəsində külli miqdarda maddi mədəniyyət abidələri aşlkar edilmişdir. Arxeoloji irsin qorunmasında Azərbaycan Milli Elmlər Akademiyası “Arxeologiya və Etnoqrafiya İnstitutu”nun böyük xidmətləri var. (7,s.12)

Arxeoloji irsin özünəməxsusluğu bir sıra amillərlə şərtlənir. İlk növbədə onu da qeyd etmək lazımdır ki, arxeoloji abidələrin və əşyaların daha çox məhv olma təhlükəsi var. Digər tərəfdən onların böyük hissəsi hələ də elmə məlum deyil.

Beləliklə, bəşəriyyətin tarixi haqqında biliklərin əldə edilməsində arxeoloji irsin öyrənilməsinin, qorunmasının böyük əhəmiyyət vardır.

Tədqiqatlara, əldə olunan maddi mədəniyyət nümunələrinə və arxeoloji qazıntılar zamanı tapılan tapıntılara söykənib ziddiyətli məqamları aradan qaldırmaq üçün haqqında danışmaq istədiyimiz yazılar və təsvirlər əsasında mütəxəssislərin nəinki dəfn olunmuş

adam haqqında, dövrün nəqqaş, xəttat, rəssam, heykəltəraş və başqa bədii daşyonma ustalarının fəaliyyəti haqqında da zəngin və dəqiq məlumat topladıqlarını qeyd edə bilərik.

Yuxarıda qeyd etdiyim tədqiqatlara, araşdırmalara, tapıntılara və qazıntılar zamanı əldə olunan maddi sübutlara əsaslanıb belə qənaitə gələ bilərik ki, hansı dini dünyagörüşünə aid olmasına baxmayaraq həmin məzarlar azərbaycanlıların tarixinin, bu ərazinin qədim sakini olmasının, mədəniyyətinin şahidi olduğu üçün onun milli-mənəvi dəyərləri sisteminə daxil olduğunu göstərə bilərik.(51, s.114-115)

Bu yerdə qeyd etməyimiz yerinə düşərdi ki, Azərbaycan ərazisində tapılmış və müxtəlif dövrlərə aid arxeoloji tapıntılar xalqın təsərüffat həyatı, incəsənəti haqqında da məlumat verir. Məsələn, tunc dövrünə aid qabların üzərindəki təsvirlər qədim insanların dini görüşləri və təsərüffat həyatı ilə bağlı olduğunu sübuta yetirir. Buna misal olaraq Gədəbəy rayonunun Çiçəkli kəndinin yaxınlığındakı Damyeri, Şahdağ kəndinin Qərb istiqamətindəki Qırcıllını, Pirbudağıl, Şahtalasını, Qalaçanı, Kürddərəsi, İmamizini, Pirbulağı, keçmiş Şurabad indiki Şahdağı kəndi ilə Çobankənd kəndinin arasındakı qədim tarixə malik olan Oğuz qəbirlərini və Qalaça adlanan yeri, Əyrəvəng kəndinin yaxınlığındakı Qızılvəng və yenə də həmin rayonun Qızılqaya kəndinin yaxınlığındakı qədim tarixi özündə əks etdirən Qalaçanın və yaşayış yerinin, Qızıltorpaq və Dikdaş kəndlərinin yaxınlığındakı Qızılqaya və Dəlikdaş, Böyük Qaramurad kəndinin ərazisindəki qalaça və Kiççik Qaramurad kəndinin yaxınlığındakı Dərbənd adlanan qədim tarixə malik olan yaşayış düşərgələrini göstərə bilərik. Həmin ərazilərdən arxeoloji qazıntılar zamanı əldə olunan maddı mədəniyyət nümunələriylə bərabər qədim tarixi özündə əks etdirən qəbirlər və dəfnə mərasimlərini özündə əks etdirən tapıntılar haqqında da istənilən fikir söyləmək olar.(7,s.33-34)

Bu baxımdan aparılmış arxeoloji tədqiqatlar və arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələrinə əsaslanaraq onu da qeyd edə bilərik ki, qədim tarixə malik olan Azərbaycan ərazisində yaşayan əhalinin dini dünyagörüşünün formalaşması tədqiqar predmeti kimi təhlil obyektinə çevrilir. Eyni zamanda qəbirlərin arxeoloji tədqiqatı da dini baxımdan müəyyən mərhələləri özündə əks etdirir və yaxud müəyyən edilir. Onu da qeyd edə bilərik ki, qəbrlərin tədqiqatı zamanı dini ayinlərin və dini mərasimlərin fərqli formada icra edildiyini bir çox arxeoloqlar öz tədqiqat mteriallarında açıq şəkildə qeyd etməyə çalışmışlar. Digər bir aspektdən yanaşsaq arxeoloqların əldə etdikləri mənəvi dəyərlərin içərisində dini dəyərlərin formalaşmasının özünəməxsus şəkildə təzahür olunduğunu da görə bilirik.(7, s.361-362)

Arxeoloqların apardıqları tədqiqatlara və qazıntılara əsaslanıb düşündüklərimizi konkretləşdirərək belə qərara gəlmək olar ki, əldə olunan tapıntılar qədim tarixə malik olan yaşayış yerlərimizdə dini dəyərlərə nə dərəcədə üstünlük verildiyini qəbir abidələrində və Azərbaycan ərazisində olan qədim dini ibadətgahlarda açıq şəkildə görmək olar. Bu da həmin ərazilərdə yaşayan insanların dinə bağllığını və dini etiqadlara olan inamının bariz nümunəsidir.

Arxeoloji tədqiqatların nəticələri ilə təsdiq olunan yazılı mənbələr bir daha onu göstərir ki, ərəb işğalı, xəzər yürüşləri, yerli əhalinin xilafətə qarşı çıxışları və sairələrlə əlaqədar iki əsrdən çox davam edən iqtisadi durğunluq dövründən sonra Azərbaycanda şəhərlərin, sənətkarlığın və ticarətin inkişaf etməyə başladığını göstərməsi də dini inancların müxtəlif formada inkişafından xəbər verdiyini görə bilirik.

İstər dinin, istər dinin inkişafı, istərsədə dini mərasimlərin bunun kimi də sənətkarlığın, daxili və xarici ticarətin sürətlə inkişafı bəzi şəhərlərin sosial-iqtisadi quruluşunda dəyişikliklər etdiyini aparılan aparaşdırmalar və arxeoloji qazıntılar təsdiq etmişdir.

Arxeoloji tədqiqat obyekti olmuş bəzi ərəb dövrü şəhərlərində (Gəncə, Qəbələ, Mingəçevir, Gədəbəy, Kəlbəcər, Qazax, Beyləqan-Örənqala, Cəllabad, Astara, Bərdə, Şirvan, Dərbənd, Bakı, Şabran, Şamaxı və b.) aparılmış qazıntı işləri zamanı orta əsr sənətkarlığının bütün əsas sahələrinin məhsulları aşkar edilmişdir.(8, s.179-180)

Müasir dövrdə tarixi keçmişimizə boylanıb diqqət yetirmiş olsaq qədim tarixə malik olan ata-baba yurdumuzun zənginliyini diqqətdən kənaqda qoya bilməməyimizi də düşünürük. Aparılmış tədqiqatlardan, araşdırmalardan, qazıntılardan, əldə olunan maddi sübutlardan və mədəniyyət nümunələrindən də aydın olur ki, qədim yaşayış yerlərinə olan maraq qanunauyğun olaraq getdikcə daha da artır və yaxud artmaqdadır. Bu da tarixmizin açılmayan sirlərlə dolu olduğuna olan marağın göstəricisidir. Faktiki olaraq qeyd etmək olar ki, tarixi keçmişi dəyişmək mümkün deyil, onu olduğu kimi, mənfi və müsbət tərəfləri, naliyyət və uğursuzluqları ilə qəbul etmək lazımdır. Çünki insanlardan ölkənin keçmişi deyil, bu günkü günü və gələcəyi aslıdır. Ölkənin inkişafını lazımı səviyəyə qaldırmaq üçün keçmiş tarixi təcrübəyə nəzər salıb, hadisələri ciddi, ardıcıl və obyektiv təhlil edərək, ondan istifadə etmək zərurəti bizim və gələcək tərixçilərin önündə ciddi məsuliyyət qoymuş olur.(7,s.97-98)

Bu da onu göstərir ki, arxeoloji qazıntılar nəricəsində əldə olunan maddi sübutlar həm maddi dəyərlərimizin, həm də mənəvi dəyərlərimizin zəngin tarixə malik olmasının başlıca səbəbləridir.

Xalqmızın uzun əsrlərdən bəri yaratdığı, yaddaşlarda yaşayıb zaman-zaman müxtəlif variantlara saldığı, yaşadıqca, nəsildən-nəslə ötürüldükcə cilalanıb, mükəmməlləşib formalaşan və yüksək vənəvi axlaqi dəyərləri özündə ehtiva edən zəngin ənənələri vardır. Xalqın bu mədəni irsi, milli sərvəti insanlığın ibtidai dövrlərindən başlamış, müxtəlif ictimai-siyasi formasiyalarda tarixi sınaqlardan çıxmış, müxtəlif etiqadlarla, təriqətlərlə, dünyagörüşü ilə təmasda olub bu günümüzə gəlib çatmışdır. Bu tarixi gedişatın xronoloji izlənməsinə, bayram ənənəsinin mənşəyi və tarixi köklərinə dair məlumatlarla etnoqrafik, filoloji, sənətşünaslıq və sairə elm sahələrinə həsr edilmiş tədqiqatlarda rast gəlmək mümkündür. Lakin arxeoloji tədqiqatlar və arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət dəyərləri həm tarixi, həm də folklorşünaslıq və ədəbiyyatşünaslıq sahəsində çalışmış alimlərin diqqətini çəkmişdir. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, siyasət və mədəniyyət xadimlərinin qazıntılar zamanı əldə olunan maddi dəyərlərlərlə bağlı olan məqalələr də diqqətdən yayınmamalıdır. (2, s.12-13)

Dövlətçilik ənənələrini mühafizə edən tədqiqatın, istərsə də qazıntının ictimai-siyasi və mədəni əhəmiyyətini Azərbaycan Respublikasının milli meyarları ilə qiymətləndirilməsini də qeyd etməyimiz yerinə düşərdi.

Müasir dünya mədəniyyətində qlobal, bunun kimi də regional və lokal problemlərin həllinə yeni münasibət müşahidə edilməkdədir. Bu inkişaf prosesinin yəni arxeoloji axtarışın və qazıntının başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır.

Haqqında danışmaq istədiyimiz arxeoloji istiqamətdə aparılan istər arxeoloji tədqiqatlar istərsə də arxeoloji qazıntılar mürəkkəb və heç də birmənalı qiymətləndirilməyən həmin prosesin prespektivləri mədəni dünyanı düşündürməkdədir.

Sivlizasiyanın müasir səviyyəsi tələb edir ki, mədəni-iqtisadi, bunun kimi də arxeofaktların meydana çıxmasını bir araya gətirmiş olsun.

Bu yerdə onu da qeyd edə bilərik ki, əldə olunan maddi mədəniyyət nümunələrinin, axtarışların, tatıntıların və qazıntılar nəticəsində əldə olunan yeniliklərin demək olar ki, hamsı yeni bir mərhələdə təmsil olunmasıdır.

Arxeoloji arxeofaktların görünən tərəflərindən biri də bu dur ki, bu gün əldə olunan maddi mədəniyyət nümunələrinin varlığı xalıqları biri-birinə yaxınlaşdırır, insanlar arasında etimadın möhkəmlənməsi kimi nəcib işə xidmət edir. Maddi-mədəniyyət sahəsində qarşılıqlı mübadiləyə geniş vüsət verir. Buna misal olaraq respublikamızın bəzi dağlıq və dağətəyi rayonlarında yaşayan əhalinin özlərinə məxsus apardıqları arxeoloji axtarışlar və qazıntıları göstərə bilərik.

İnsanların mədəni sərvətlərə meylinin əsaslı surətdə dəyişdiyi müasir dünyanın hər yerində, xüsusilə inkişaf etmiş ölkələrdə ümumibəşəri mədəniyyətin sürətli inkişafı hiss olunur. Bir tərəfdən respublikamızda milli və bəşəri dəyərlərin sintezini, dünya təcrübəsinə inteqrasiyasını təmin edən mühitin formalaşması yönündə həyata keçirilən islahatlar yeni-yeni arxeofaktların da üzə çıxmasına şərait yaradır. Bu baxımdan qədim tarixə malik olan Azərbaycanımız ərazisindən tapılmış maddi-mədəniyyət nümunələrinin oxşarlığı bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür. Əldə olunan arxeoloji arxeofaktlar onu da deməyə əsas verir ki, mədəni dünya tərəfindən dərk edilən və etirazlarla qarşılanan neqativ təzahürlər, siyasi və iqtisadi mənafelərin güdüldüyü məqsədlər də vardır ki, son nəticədə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunan bəzi sübutlar mədəni tərəqqiyə sarsıdıcı və dağıdıcı zərbə vurur. (2,s.129-130

Keçmişlə gələcək arasındakı arxeoloji bir prosesin gerçəkləşməsi-bir cəmiyyətdə mədəni dəyərlərin inteqrasiyasını özündə birləşdirsə də Azərbaycanın Beynəlxalq mədəni əlaqələri kontekstində bir araya gələn irsin qorunması tarixin əsas mənbəyi kimi deməyimiz də əsas şərtlərdən biridir. Bu baxımdan tarixi-mədəni varisliyin qorunması, mühafizə edilməsi prosesində milli-mənəvi dəyərlər sisteminin vacib elementin ayrılmaz tərkib hissəsi olan arxeoloji arxeofaktların rolu danılmazdır. Bundan doğan ənənələrin, mərasimlərin və adətlərin qədimliyini də dərs vəsaitinin aktuallğı ilə müqayisə edib bir araya gələ bilərik. (6,s.6-7)

Qədim tarixə malik olan Azərbaycan torpaqlarının öz sərhədləri daxilində aparılmış arxeoloji tədqiqatlar və qazıntılar onu göstərir ki, həmin yaşayış məskənlərinə yadelçi işğalçılar zaman-zaman yürüşlər və hücümlür etsələr də qədim yaşayış yerlərində yaşayan insanlar bu işğalşıları dəf edə bilmiş və adət və ənənələrindən dönməmişlər. Bir çox zəngin vilayətlər boşalıb, çiçəklənən şəhərlər xarabalığa çevrilsə də həmin yaşayış yerlərində yaşayanlar öz əqidələrindən dönüb təslim olmamışıar. Müəyyən ərazilərdə işğalçılıq və talançılıq hücümlarına məruz qalmış insanlar yenidən möhkəmlənərək özlərinin həyatında dəyşikliklər yaradaraq daxili və xarici siyasətə qarşı mübarizələrini güncləndirmişlər. (57,s.26-32)

Onu da qeyd etmək yerinə düşərdi ki, həmin zamanlar Azərbaycan mədəniyyətində ümummüsəlman ənənələri özünü qabarıq büruzə vermiş, xüsusilə maddi mədəniyyətdə köklü dəyişikliklər yaranmışdır. İlk növbədə, saray konpleksinin inşası, ticarətin inkişafı,

mədəni həyatın canlanması kənd təsərüffatı ilə yanaşı sənətkarlıq nümunələrinin istehsalı, xüsusilə şəhər sənətkarlığınnin inkişafının durmadan artması da aparılan arxeoloji tədqiqatlardan və qazıntılardan məlum olmuşdur. Hətta şəhər sənətkarlığının və ticarətin tənəzzülə uğramasını da arxeoloji tədqiqatlarda və qədim tarixə malik olmuş yaşayış yerlərində aparılmış arxeoloji qazıntılardan görə bilirik.

Bütün bu mühüm hadisələrin təsir çoxsaylı abidələrdə, yaşayış yerlərində-kənd və şəhər xarabalqlarında, qalalarda, müdafiə istehkamlarında, yaşayış binaları qalıqlarında, saraylarda, ictimai, təsərüffat və dini tikililərdə, karvansara, körpü, sərdabə və türbələrdə, qəbirstanlıqda və sairə aydın izlənilir. Bu abidələrin qalıqlarına Azərbaycanın bütün ərazilərində -dağ, ağətəyi və düzən rayonlarında hər addımbaşı rast gəlmək mümkündür.(6,s.5-6)

Bunu da xatırladaq ki, ölkəmizin ayrı-ayrı bölgələrinin, eləcə də orta əsr abidələrinin müxtəlif növlərinin arxeoloji baxımdan eyni dərəcədə tədqiqata cəlb olunmaması Ümumazərbaycan miqyasında kompozisiya sxemi yaratmaqda çətinlik törətmişdir.(6,s.10)

Arxeoloji tapıntılardan və qazıntılardam məlum olmuşdur ki, hər dövrün mədəniyyəti yazılı mənbələr əsasında ümumişəşdirici əsərlərdə və ayrı-ayrı monaorafiyalarda imkan daxilində lazımınca işıqlandırılmasını da qeyd etməyimiz yerinə düşərdi. Belə problemlərin üzə çıxması nəticəsində etnoqrafiya istiqamətində xeyli iş görülmüşdür. Arxeoloji və etnoqrafiya istiqamətində xeyli işlərin görülmasi cəmiyyətimizi üçün yararlı olduğunu xüsusi qeyd etməklə bərabər həm də istər arxeologiya istiqamətində istərsə də etnoqrafiyamızın inkişafı sahəsində xeyli görülən işləri də dilə gətirməyimiz yerinə düşərdi. Məsələn yaşayış məskənlərindəki əkinçilik mədəniyyəti haqqında fikir söyləməyə çalışarkən indiyə qədər arxeoloji baxımdan yetərincə faktların meydana çıxması dediklərimizə əyani sübutdur. Bu yerdə onu da qeyd edə bilərik ki, qədim tarixə malik olan yaşayış yerlərindən əldə olunan arxeofaktları hər tərəfli tədqiq etmək üçün arxeoloji materialların müstəsna əhəmiyyətini çoxluğunu da deyə bilərik.(1,s.74;8,s.264-265)

## Ədəbiyyat:

1. Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı; “Elm”, 1998. 520 s.
2. Azərbaycan Respublikasının “Mədəniyyət və Turizm qanunvericiliyi toplusu”. İki cilddə. I cild. Bakı; Avrasiya Press, 2011, 522 s.
3. Azərbaycan tarixi: 7 cilddə, II c., Bakı; “Elm”, 2007. 608 s.
4. Azərbaycanarxeologiyası. VIcilid (VIciliddənibarətdir) Bakı; “Şərq-Qərb”, 2008, 632 s.
5. Azərbaycan Etnoqrafiyası I cilid Bakı; “Şərq-Qərb”, 2007, 543 s.
6. Azərbaycan Etnoqrafiyası III cilid Bakı; “Şərq-Qərb”, 2007, 567 s.
7. Əliməmmədov A. İslamaqədərki inamların öyrənilməsində qayaüstü təsvirlərin roluna dair // Milli Azərbaycan Tarixi Muzeyi, Bakı; “Ziya”, 2013, 34-39 s.
8. Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Azərbaycan abidələri. Bakı: Azərnəşr, 1989. 157 s
9. İsmayılzadə Q., İbrahimliB. Qızılburunnekropolu. Bakı; Elmvə Təhsilnəşr., 2013, 120 s.

10. Kərimov Ə.S. Azərbaycanmillimentaliterivə müasirlikadlı məqaləsi // Humanitarelmlərinoyrənilməsininaktualproblemləri. Aliməktəblərarası elmiməqalələrməcmuməsi, IIIburaxılış, Bakı: “Mütərəccim” TMNPMmətbəsi. 2006, 26-32 s.
11. Nağıyev N.H., Hüseyinov F.M. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. V cild. Bakı; “Şərq-Qərb” nəşiriyyat evi, 2013. 352 s.

**Сахиб Велиев**

**Археология как основной источник изучения материальной культуры Азербайжана**

**Резюме**

Наука археология является основным источником изучения материальной культуры Азербайджана древнего периода. Археологические исследования показывают, что Азербайджан страна с богатым культурным наследием.

**Ключевые слова**: духовная культура, культурные ценности, идеология, история, археология.

**Sahib Veliyev**

**Archaeology as the main source of study material culture of Azerbaijan**

**Summary**

The science of archaeology is the main source of studying the material culture of Azerbaijan of the ancient period. Archaeological research shows that Azerbaijan is a country with a rich cultural heritage.

**Key words**: spiritual culture, cultural values, ideology, history, archeology.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.03.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.03.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 25.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**.